**İLHAM HƏSƏNOV**
*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu*
**E-mail: TarixVeOnunProblemleri@gmail.com**

# AZƏRBAYCAN TİBB İNSTİTUTUNUN TƏDRİS-PEDAQOJİ FƏALİYYƏTİ TARİXİNDƏN (1969-1991-ci illər)

*Açar sözlər:* Tibb, elmi-pedaqiji, həkim, cərrah, müalicə
*Ключевые слова:* медицинский, научно-педагогический, врач, хирург, лечение
*Key words:* medical, Scientific-pedagogical, doctor, surggeon, treatment

60-cı illərin sonu 70-ci illərin əvvəllərində keçmiş SSRİ-də hamının ali təhsil alması üçün şərait yaratmaq devizi altında keçən kampaniya, geniş profilli kadrların hazırlanmasından imtina edilməsi və məhdud ixtisaslara keçməsi, tələbələrin məcburi materiallarla yüklənməsi, faiz dalınca qaçmaq kimi eybəcər qeyri elmi tədris metodu bütün ali məktəblərdə olduğu kimi, ATİ-də də tədrisin vəziyyətinə mənfi təsir göstərmişdi. Nəticədə yüksək ixtisaslı kadrların hazırlanmasına tələbkarlıq ciddi surətdə aşağı düşmüş, ali məktəblərin həyatdan ayrı düşməsi mütəxəssislərin hazırlanmasının kəmiyyət və keyfiyyətinə ciddi təsir etmişdi. Respublikanın ali məktəblərində yaranmış bu vəziyyət Azərbaycan KP MK-nın 1969-cu il avqust plenumunda açıq tənqid edilmişdi. Orada ali məktəblərin fəaliyyətində əldə edilən uğurlar qeyd edilməklə bərabər, kadr hazırlığında nəzərə çarpan ciddi çatışmazlıqlar və qüsurlar: təhsilin cəmiyyət həyatından kənarda qaldığı, təhsilin, elmin və səhiyyənin xalq təsərrüfatının kadrlara olan tələbatına cavab vermədiyi, mövcud kadr potensialının imkanlarından zəif istifadə edildiyi göstərilmişdi. Plenum ali məktəblərdə təhsil alan tələbələrin sayını ciddi surətdə artırmağı, ali məktəblərin maddi-texniki bazasını möhkəmləndirməyi, ilk dəfə təhsil almaq istəyənlərə hər cür şərait yaratmağı Respublikanın ali və orta ixtisas təhsil və səhiyyə nazirliklərinə tapşırmışdı. Bu dövrdə Respublikanın digər ali məktəbləri kimi ATİ-də də tədrisin keyfiyyətinin yüksəldilməsi istiqamətində əməli işlərin görülməsi, orada tədris işinin tədricən yaxşılaşdırılmasına və yüksəlməsinə səbəb olmuşdu. İnstitutda 60-90-cı illərin əvvəllərində bu istiqamətdə işlərin təşkilində onun rektorları B.Ə.Eyvazovun (1946-1964) X.Ə.Həsənovun (1964-1968), B.F.Məcidovun (1968-1972), Z.T.Quliyevanın (1972-1983), Y.C.Məmmədovun (1983-1992) böyük xidmətləri olmuşdur.

İnstitutun elmi həyatında mühüm rol oynayan Elmi Şura ilə yanaşı Tədris-metodiki Şurada həkim kadrların hazırlanması, tədrisin keyfiyyətinin yüksəldilməsi, onun optimallaşdırılması, mühazirə və seminar məşqələlərinin kompleksləşdirilməsi, kliniki və nəzəri fənlərin proqramlaşdırılması, tələbələrin tədris müvəffəqiyyətləri və nöqsanları, davamiyyətləri, dərslik və tədris vəsaitlərinin yazılması və nəşri məsələləri, tədrisin keyfiyyətini yüksəltmək məqsədilə kafedralararası əlaqələr və s. məsələlər müzakirə edilirdi.

İnstitutda tədrisin keyfiyyətinin yüksəldilməsi, mühazirə, laboratoriya məşqələləri və digər tədris üsulları ilə görkəmli tibb alimləri və həkim-pedaqoqlar məşğul olurdular.

Tibb kadrlarının hazırlanmasının son mərhələsi bir illik ixtisaslaşma - internatura vasitəsilə həyata keçirilirdi. Profilaktik və müalicə-diaqnostika işlərinin keyfiyyətini yüksəltmək məqsədilə İnstitutda Azərbaycan SSR Səhiyyə Nazirliyinin 22 aprel 1973-cü il tarixli əmri ilə müalicə-profilaktika və pediatriya fakültələrində internatura sistemi tətbiq edilmişdi. İlk ixtisaslaşma subordinatura və internatura xəttilə iri tibb müəssisələrinin bazası əsasında aparılırdı. Səhiyyə orqanları ilə əməkdaşlıq prinsipi əsasında aparılan kadr hazırlığı məqsədilə

1973-cü ildə İnstitut üçün 56 baza tibb müəssisəsi ayrılmış və o vaxtdan 80-ci illərin ortalarına kimi burada internaturanı 1058 nəfər bitirmişdi [1, s.24].

60-80-ci illərdə İnstitutun büdcəsi 3 dəfədən çox artmışdı. Onun tədris binaları genişləndirilmişdi. 1984-cü ildə ATİ-də tədris-texniki şöbə yaradılmışdı. 1984/85-ci dərs ilində İnstitutda idman sarayı, neyrocərrahiyyə mərkəzi, İnstitut daxili telestudiya istifadəyə verilmiş, iri mühazirə auditoriyalarında qrafikproektorlar – «Lektor-2000», avtomatik «LETİ» qurğuları, mühazirələrdə tibbi fraqmentləri və diafilimləri nümayiş etdirmək üçün 10 ədəd «Ukranina» qurğusu qurulmuşdu [1, s.24]. 1985-ci ildə İnstitutun «Blok-A» və «Blok - B» korpuslarının tikintisinə başlanılmışdı. Birinci korpusun tikintisinə 3.992 min rubl, ikincisinə 2.394 min rubl vəsait qoyulmuşdu [1, s.24]. 1988-ci ildən tikintisinə başlanmış Mərkəzi Elmi-Tədqiqat laboratoriyasına 639 min rubl və qoyulmuş, 1989-cu ildə 1922 kv. metrlik həmin laboratoriya istifadəyə verilmişdi. 1991-ci ildə 315 yerlik 6 saylı yataqxananın və çox profilli klinik xəstəxananın terapevtik korpusunun tikilməsinə başlanılmış və bu məqsədlə, 5 mln. 962,2 min rubl vəsait qoyulmuşdu [1, s.24].

60-cı illərin sonunda keçmiş SSRİ-də, o cümlədən Azərbaycan SSR-in ali məktəblərində fəhlə və kəndli gənclərin ali məktəblərə daxil olmalarına mane olan səddi aradan götürmək, gənclərin ümumtəhsil hazırlığı səviyyəsini yüksəltmək və onların ali məktəblərə daxil olması üçün təcili şərait yaratmaq məqsədilə SSRİ Nazirlər Sovetinin 1969-cu il 20 avqust tarixli «Ali məktəblər nəzdində hazırlıq şöbələrinin təşkili haqqında» qərarı mühüm praktik əhəmiyyətə malik idi. Bu qərarla əlaqədar 1969/70-ci tədris ilində ADTİ-da hazırlıq şöbəsi açıldı və oraya 200 nəfər müdavim qəbul edildi. Təşkil edildiyi vaxtdan 1991/92-ci tədris ilinin sonuna kimi bu şöbə vasitəsilə 3898 nəfər təhsil alaraq həkimlik peşəsinə yiyələnmişdi [2, v.17].

Tədrisin keyfiyyətinin yüksəldilməsində mühüm yeri İnstitutun tədris bina və korpuslarının vəziyyəti tuturdu. 60-cı illərin əvvələrində nəzəri kafedralar əsasən 3 iri tədris korpusunda yerləşdirilmişdi. Klinik fənlər üzrə dərslər isə şəhərdə olan 6 klinik xəstəxanada, 4 elmi-tədqiqat institutunda, iki doğum evində, 30 poliklinikada, həkim məsləhətxanalarında və dispanserlərdə keçirilirdi [1, s.81]. 70-ci illərin əvvələrindən etibarən yeni tədris korpusunun (4-cü korpus) istifadəyə verilməsi və kafedralara yeni laboratoriya avadanlığının alınması, əsas klinik bazaların yerləşdiyi 1 saylı klinik xəstəxananın yenidən qurulması, yeni klinik korpusların istifadəyə verilməsi tədris yerlərinin mövcud normativlərə müəyyən qədər yaxınlaşdırılmasına şərait yaratmışdı. Lakin bu dövrdə İnstituta tələbə qəbulunun artırılıb ildə 1300 nəfərə çatdırılması ilə əlaqədar darısqallıq hiss edilməkdə idi. 70-ci illərdə İnstitutun mərkəzi elmi-tədqiqat laboratoriyasının üçün yeni bina tikilib istifadəyə verilməsi və laboratoriyanın buraya köçürülməsi onun əvvəl yerləşdiyi sahəyə farmakologiya kafedrasının köçürülməsinə imkan yaratmışdı. Bundan əlavə, İnstitut üçün müasir tələblərə cavab verən idman kompleksi tikilib istifadəyə verilmişdi. Buna qədər tələbələr bədən tərbiyəsi dərsi keçmək üçün dərsarası tənəffüs dövründə şəhərin kənarlarında yerləşən müxtəlif stadionlara gedib-gəlməli olurdular ki, bu da tədrisin keyfiyyətinə mənfi təsir göstərirdi. 70-80-ci illərdə İnstitut tələbələri üçün bir neçə yataqxana binası tikilib istifadəyə verilmişdi ki, bu da Respublikanın rayonlarından və xarici ölkələrdən gələn tələbələrin mənzil ehtiyaclarının qismən də olsa, təmin olunmasına imkan vermişdi.

1985-1991-ci illərdə keçmiş SSRİ-də «yenidənqurma» adı altında aparılan tədbirlər dərslərin keyfiyyətinə müəyyən qədər mənfi təsir göstərmişdi. Tədris planlarının və proqramlarının tez-tez və əsassız dəyişdirilməsini buna misal göstərmək olar. Lakin yuxarıdan (Moskvadan – İ.H.) verilən göstərişlərə əsasən eksperiment şəkildə yerinə yetirilən bu tədbirlərin qarşısı alınmış, son nəticədə isə ixtisas fənlərinə ayrılan dərs saatları ictimai və ümumi nəzəri fənlərin tədris miqdarının azalması hesabına artırılmış, bununla da tələbələrin praktik vərdişlərə daha yaxşı yiyələnməsinə şərait yaradılmışdı.

60-cı illərdən etibarən keçmiş SSRİ-nin ali tibb məktəblərində 7 illik təhsil müddətinə keçilməyə başlanmışdı. Sonuncu 7-ci tədris ilində məzunlar diplom hazırlığından sonrakı ixtisaslaşma kursu - internatura keçirdilər. Klinik bazaların darısqallığı üzündən ATİ-də internatura yalnız 1973-cü ildən etibarən müalicə-profilaktika və pediatriya fakültəsində tətbiq edilmişdi. İnternatura keçmək üçün Bakı şəhər səhiyyə şöbəsinin 60 müalicə-profilaktika müəssisəsinin bazasında yer ayrılmışdı. Lakin bu da kifayət etmədiyinə görə sonrakı illərdə həkim-internlərə Gəncə və Sumqayıt, Mingəçevir, Əli-Bayramlı, Şəki və b. Şəhərlərin müalicə müəssisələrində ixtisaslaşma keçməyə şərait yaradılmışdı.

70-80-ci illər İnstitutda tələbələrin sayının sürətlə artması ilə xarakterizə edilir. 1971-1980-ci illər ərzində 11436 məzuna həkim və əczaçı diplomu verilmişdi, yəni bu onillik ərzində İnstitutu bitirənlərin sayı əvvəlki onilliyə nisbətən 2-3 dəfə çox, müharibədən sonrakı ilk 25 il (1946-1970-ci illər) ərzində İnstitutu bitirənlərdən isə 114 nəfər çox olmuşdu. 1981-1989-cu illərdə isə ATİ 11783 nəfər mütəxəssis hazırlamışdı. 1990-cı ildə bu İnstitut tələbələrinin sayına görə keçmiş SSRİ-nin ali tibb məktəbləri arasında birinci yeri tuturdu. Həmin ildə burada 7533 nəfər tələbə təhsil alırdı ki, bunlardan da 6570 nəfəri azərbaycanlı, 757 nəfəri Azərbaycan SSR-də yaşayan başqa xalqların nümayəndələri, 206 nəfəri isə əcnəbi tələbələr idi [1, s.82].

İnstituta əcnəbi tələbələrin qəbuluna 1961/1962-ci dərs ilindən başlanmışdı. Həmin ildə İnstituta Sudan, Mali, Ana, Somali, Birləşmiş Ərəb Respublikası və Suriyadan 22 xarici tələbə qəbulu planı müəyyən edilmişdi. 1970-ci ildə əcnəbi tələbələrin sayı artdığına görə ayrı-ayrı fakültələrdə təhsil alan həmin tələbələr üçün xüsusi dekanlıq – xarici tələbələr dekanlığı yaradılmışdı. Həmin ildə bu fakültədə 24 ölkədən 234 nəfər təhsil alırdı, onların əksəriyyəti zəif inkişaf etmiş dövlətlərdən gələnlər idi [1, s.14].

Əvvəllər əcnəbi tələbələr arasında rus dilində təhsil almaq istəyənlərin sayı daha çox idi. Buna görə 1987-ci ildə Tibb İnstitutunda əcnəbi tələbələrə genişləndirilmiş proqram üzrə rus dili dərsi keçən kafedra təşkil edilmişdi. 90-cı illərin əvvəllərindən əcnəbi tələbələrin əksəriyyəti Azərbaycan dilini öyrənməyə üstünlük verərək bu dildə təhsil almağa başlamışdılar. Bu, Azərbaycanın dövlət müstəqilliyi əldə etdikdən sonra Azərbaycan dilinin beynəlxalq nüfuzunun artması ilə və tələbələr arasında Cənubi Azərbaycan və Türkiyə vətəndaşlarının sayının üstünlük təşkil etməsi ilə əlaqədar idi.

60-90-cı illərin əvvəllərinə kimi ATU-nu, Livan, Yəmən, İran, Əfqanıstan, Laos, İsrail, Misir Ərəb Respublikası, Kolumbiya, Mərakeş, Nepal, Peru, Luanda, Boliviya, İraq, Suriya, Santome və Prinsipi, Kamboca, Şri-Lanka, Ekvador, Efiopiya, Türkiyə, Hindistan, Tunis, İordaniya, Burundi, Qvineya-Bisau, Fələstin, Syerra-Leone və b. ölkələrdən gəlmiş 642 nəfər bitirmişdi [1, s.103].

1991-ci ildə İnstitutda sanitar-gigiyena fakültəsi tibbi-biologiya fakültəsi kimi təşkil edilmişdi. Lakin onun illik hesabatları tədqiq etdiyimiz dövrə aid olmadığından onun sonrakı fəaliyyəti barədə statistik materialları verməyi məqsədəuyğun hesab etməmişik.

60-cı illərin sonu - 90-cı illərin əvvəlində ATİ-də və onun ayrı-ayrı fakültələrində tələbə kontingenti, o cümlədən qəbul və buraxılışlar üzrə İnstitut tələbələri içərisində azərbaycanlı tələbələrin artım dinamikasını əks etdirən cədvəl.

Cədvəl illər üzrə İnstitutun tədris hesabatları əsasında müəllif tərəfindən tərtib olunmuşdur.

| Tədris illəri | İnstitut üzrə tələbələrin sayı | Onların içərisində azərbaycanlılar | O cümlədən azərbaycanlı qızları | İnstituta qəbul | İnstitut üzrə ümumi buraxılış | I müalicə-profilaktika fakültəsi | II müalicə profilaktika fakültəsi | Pediatriya fakültəsi | Sanitar-gigiyena fakültəsi | Stomotologiya fakültəsi | Əczaçılıq fakültəsi | Xarici tələbələr fakültəsi | Hazırlıq şöbəsi |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1969/70 | 5510 | 3476 | 2115 | 950 | 740 | 2468 | - | 1104 | 740 | 633 | 509 | 56 | 69 |
| 1970/71 | 5545 | 3513 | 2995 | 900 | 760 | 2586 | - | 1087 | 743 | 638 | 400 | 61 | 125 |
| 1971/72 | 5582 | 3645 | 3010 | 850 | 875 | 2638 | - | 1093 | 751 | 617 | 445 | 67 | 150 |
| 1972/73 | 6296 | 4123 | 3472 | 800 | 953 | 3109 | - | 1237 | 786 | 631 | 462 | 71 | 170 |
| 1973/74 | 6783 | 4434 | 3681 | 850 | 1046 | 3574 | - | 1247 | 731 | 674 | 475 | 82 | 196 |
| 1974/75 | 7244 | 5024 | 3790 | 850 | 1194 | 2015 | 1950 | 1308 | 743 | 682 | 468 | 78 | 198 |
| 1975/76 | 7621 | 5340 | 4126 | 800 | 1300 | 2036 | 1885 | 1296 | 724 | 680 | 478 | 80 | 185 |
| 1976/77 | 7692 | 5547 | 4265 | 900 | 1320 | 2003 | 1910 | 1525 | 741 | 685 | 643 | 85 | 201 |
| 1977/78 | 7643 | 5648 | 4372 | 900 | 1300 | 1992 | 1946 | 1635 | 724 | 690 | 668 | 88 | 212 |
| 1978/79 | 7969 | 5736 | 4471 | 95 | 1300 | 1978 | 1938 | 1873 | 716 | 697 | 675 | 89 | 200 |
| 1979/80 | 8150 | 6243 | 4224 | 1000 | 1300 | 2011 | 1992 | 2074 | 701 | 693 | 679 | 91 | 198 |
| 1980/81 | 8000 | 6110 | 4096 | 1050 | 1350 | 1950 | 1935 | 2011 | 693 | 712 | 689 | 97 | 200 |
| 1981/82 | 7980 | 5980 | 4755 | 1100 | 1257 | 1943 | 1929 | 2008 | 691 | 710 | 689 | 94 | 200 |
| 1982/83 | 7800 | 5725 | 4500 | 1000 | 1291 | 1830 | 1821 | 2081 | 661 | 697 | 666 | 96 | 201 |
| 1983/84 | 7850 | 5770 | 4488 | 1200 | 1300 | 1850 | 1837 | 2090 | 663 | 698 | 667 | 100 | 200 |
| 1984/85 | 7830 | 5750 | 4950 | 1278 | 1419 | 1856 | 1843 | 2097 | 665 | 700 | 669 | 102 | 200 |
| 1985/86 | 6698 | 5440 | 4745 | 1386 | 1425 | 1408 | 1405 | 1713 | 534 | 697 | 633 | 115 | 197 |
| 1986/87 | 6722 | 5572 | 4673 | 1391 | 1330 | 1391 | 1398 | 1737 | 464 | 675 | 622 | 117 | 198 |
| 1987/88 | 6224 | 5126 | 4432 | 1350 | 1272 | 1387 | 1377 | 1754 | 462 | 663 | 581 | 141 | 198 |
| 1988/89 | 7387 | 5385 | 4743 | 1300 | 1009 | 1657 | 1620 | 2024 | 398 | 665 | 548 | 151 | 241 |
| 1989/90 | | 5473 | 4960 | 1250 | 1059 | 1522 | 1512 | 1841 | 440 | 891 | 598 | 194 | 247 |
| 1990/91 | 7594 | 5805 | 4746 | 1350 | 1100 | 1235 | 1420 | 1526 | 444 | 897 | 593 | 235 | 253 |
| 1991/92 | 7870 | 5897 | 4783 | 1360 | 1319 | 1772 | 1778 | 2319 | 530 | 870 | 564 | 400 | 245 |

İllər üzrə İnstitutun hesabatları əsasında müəllif tərəfindən tərtib olunmuşdur.*

** 1991-ci ildə İnstitutda Sanitar-gigiyena fakültəsi tibbi-biologiya fakültəsi kimi təşkil edilmişdi. Lakin onun illik hesabatları tədqiq etdiyimiz dövrə aid olmadığından onun sonrakı fəaliyyəti barədə statistik materialları verməyi məqsədəuyğun hesab etməmişik.*

1969-1991-ci illərdə İnstitutun alimləri 200-dən artıq dərslik və tədris vəsaiti nəşr etdirmişdilər. Bunlardan 1977-ci ildə çapdan çıxmış prof.İ.Q.Səmədovun və dos. Q.S.Əliyevin «Peşə zəhərləmələri», prof. Z.T.Quliyeva və dos. P.Q.Zairovanın «Çəpgözlük və onun müalicəsi», prof.M.S.Abdullayevin «Uşaq anatomiyası», prof.İ.Q.Əbilovun «Hərbi səhra terapiyası», prof.C.H.Təqdisinin «Patoloji fiziologiya», prof.Z.M.Salayevanın, «Neyrogenetika üzrə tədris vəsaiti», prof.Ə.M.Məmmədovun və dos.V.A.Əliyevin «Uşaqların və gənclərin gigiyenası»nı və s. nümunə göstərmək olar.

80-cı illərdə - 90-cı illərin əvvəllərində İnstitut alimləri tərəfindən orijinal və fundamental dərsliklər və tədris vəsaitləri hazırlanıb nəşr edilmişdi. Bunlardan akad. B.A.Ağayevin «Cərrahi xəstəlikləri», prof. D.Y.Hüseynovun «Resentura sorğusu», A.İ.İsmayılovun «Dərman formalarının texnologiyası» (1988) və b. qeyd etmək olar. Yalnız 1989-1991-ci illərdə İnstitut alimlərinin 42 dərslik və tədris vəsaiti çap olunmuşdu. Onlardan Azərbaycan SSR EA-nın müxbir üzvü Y.C.Məmmədovun, professorlar C.H.Təqdisi və F.M.İslamzadənin «Patoloji fizialogiya», Azərbaycan SSR EA-nın müxbir üzvü D.V.Hacıyevin S.D.Ağayevin, R.A.Əliyevin «Biologiya üzrə təcrübi məşğələlər üçün rəhbərlik», prof. A.A.Axundovun və İ.S.İsmayılovun «Diaqnostika, reanimasiya, və fasiləsiz terapiya», prof. B.Ə.Baxşiyevin, M.S.İsayevin, M.Ə.Əliyevin və A.İ.İsgəndərovun «Pentgenologiya və radiologiya üzrə sorğu kitabı», T.A.Əhmədovun «Patoloji mamalıq», professorlar C.H.Təqdisi və Y.C.Məmmədovun «İnsan ekstremal şəraitdə», İ.M.Qafarovun, V.B.Şadlinskinin «Cərrahi tikişlər» və b. dərslikləri və tədris vəsaitləri nəşr edilmişdi.

60-cı illərin sonu - 90-cı illərin əvvəllərində Mərkəzin (Moskvanın - İ.H.) milli respublikaların hüquqlarını məhdudlaşdırmaq siyasəti milli kadrlar tərəfindən yazılmış dərsliklərin də nəşrinə müəyyən məhdudiyyətlər qoyulması ilə nəticələnmişdi. Onların çapına Mərkəzin müvafiq nazirliklərinin icazə verməsi tələbi başqa sahələrdə olduğu kimi, elmi tibbi və tədris ədəbiyyatının nəşrini də çətinləşdirmişdi. Belə şəraitdə bütün bürokratik sədləri keçərək SSRİ Səhiyyə Nazirliyindən təkrar çapına icazə alınmış bir sıra fundamental dərsliklərin nəşr olunması professor-müəllim və tələbə heyətini yaranmış vəziyyətdən çıxarmağa xeyli kömək etmişdi. Bunlardan 1969-cu ildə çap olunmuş Ə.A.Hüseynovun 2 cildən ibarət «Fizioterapiya» dərsliyi, K.Ə.Balakişiyevin 40-50-ci illərdən çap edilmiş «İnsanın normal anatomiyası» (3 cilddə) dərsliyinin, 1971-1981-ci illərdə təkrar nəşr edilməsi, akad C.Y.Hüseynovun 1979-cu ildə Azərbaycan SSR dövlət mükafatına layiq görülmüş 2 cildlik «Patoloji anatomiya» dərsliyinin 1970-ci ildə nəşri Azərbaycan EA-nın müxbir üzvü A.S.Həsənovun 1974-cü ildə çap olunmuş «Bioloji kimya» dərsliyinin 1989-cu ildə təkrar nəşri akad M.A.Topçubaşovun, akad. Z.M.Məmmədovun, akad. B.A.Ağayevin, prof. B.X.Abbasovun «Ümui cərrahlıq», «Xüsusi cərrahlıq» dərsliklərinin yenidən nəşri bu fundamental əsərlərin elmi sambalını bir daha sübut edirdi [1, s.85].

Bəhs edilən illərdə qeyd etdiyimiz dərsliklərdən əlavə prof. X.Ə.Həsənovun «Psixatriya», akad. M.C.Abdullayevin «Daxili xəstəliklər», prof. M.M.Abdullayevin «Daxili xəstəliklərinin propedevtikası», akad. A.Ə.Namazovanın «Uşaq xəstəlikləri propedevtikası», prof. N.C.Əliyevin «Mikrobiologiya» və s. bu kimi dərslikləri İnstitut alimlərinin elmi axtarışlarının uğurlu nəticələri idi [1, s. 85].

80-cı illərin ikinci yarısı - 90-cı illərin əvvəllərində SSRİ-nin dağılması ərəfəsində keçmiş Sovetlər Birliyi daxilində yaranmış gərgin ictimai-siyasi vəziyyət, bir çox postsovet respublikalarında, o cümlədən Azərbaycan SSR-də başlanan və kəskinləşən milli azadlıq hərəkatı cəmiyyət həyatının bütün sahələrində ciddi çətinliklər yaratmışdı. Lakin bu vəziyyətə baxmayaraq İnstitutda elmi-pedaqoji kadrların hazırlanması yenə də sürətlə həyata keçirilirdi. Belə ki, yalnız 1980-1990-cı illərdə ATİ-də və keçmiş SSRİ-nin elmi mərkəzlərində İnstitutun əməkdaşlarından 50 nəfər doktorluq, 245 nəfər isə namizədlik dissertasiyasını müdafiə etmişdilər [3, v.21-26].

İnstitutda elmi-pedaqoji kadrların hazırlanmasında onun nəzdində fəaliyyət göstərən aspirantura təhsil sistemində 1991-ci ildə oxuyan 54 aspirantın 53 nəfəri əyani, 1 nəfəri qiyabi təhsil alırdı. Həmin ildə İnstitut aspiranturasına 17 nəfər, keçmiş SSRİ-nin məqsədli aspiranturasına İnstitutun 17 nümayəndəsi qəbul olunmuşdu. Kliniki ordinaturada isə 1990-cı ildə 44 həkim, habelə 3 xarici ölkənin vətəndaşı təhsil alırdılar [4, v.39-95].

Göründüyü kimi, tariximizin çox əhəmiyyət kəsb edən kəsimində Tibb İnstitutu öz tədris-pedaqoji fəaliyyətini ardıcıl olaraq davam etdirə bilmişdir.

**İstifadə olunmuş ədəbiyyat:**

1. ADTU-nin CA. Fond 1, siy. 9, iş 123 (İnstitutun 1988/89; 1989/90, 1990/91-ci tədris illərinin hesabatı).
2. ADTU-nin CA. Fond 1, siy. 9, iş 87 (İnstitutun 1986-cı il üçün elmi-tədqiqat işlərinin hesabatı).
3. ADTU-nin CA. Fond 1, siy. 26, iş 12 (İnstitutun 1990-cı il üçün elmi hesabatı).
4. Əmiraslanov Ə.T., İslamzadə F.M. Azərbaycan Tibb Universiteti. Bakı, «Təbib» nəşr, 2000.

**И.ГАСАНОВ**

**ИЗ ИСТОРИИ УЧЕБНО-ПЕДАГОГИЧЕСКОЙ ДЕЯТЕЛЬНОСТИ АЗЕРБАЙДЖАНСКОГО МЕДИЦИНЕСКОГО ИНСТИТУТА (1969-1991 гг.)**

В представленной статье на основе богатых архивных материалов освешается учебно-педагогическая деятельность АМИ в 1969-1991 гг.

**I.HASANOV**

**FROM THE HISTORY OF EDUCATIONAL-PEDAGOGICAL ACTIVITY OF AZERBAIJAN MEDICAL INSTITUTE (1969-1991)**

Basing on rich archival materials educational-pedagogical activity of AMI in the 1969-1991 years has been analyzed in the given article.

***Rəyçilər: t.ü.f.d.T.Kocayeva, t.e.d.R.C.Süleymanov***

***AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu "Əliyevşünaslıq" şöbəsinin 17 oktyabr 2013-cü il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (pr. №22).***